# Pambıq yığımı kampaniyasına ciddi hazırlıq görülür



**Son illər ölkəmizdə sürətlə inkişaf edən sahələrdən biri də pambıqçılıqdır. Ötən il olduğu kimi, bu il də plantasiyalarda bol məhsul yetişdirilib. İndi əsas vəzifə məhsulu tez və vaxtında toplayıb təhvil verməkdir. Bu il iyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahəyə dair müşavirə keçirilib. Tədbirdə çıxış edən dövlətimizin başçısı bildirib ki, aqrar sahənin inkişafı istiqamətində atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir. Əsasən, bitkiçilik sahəsində, heyvandarlıqda artım təxminən üç faizə yaxındır.**

*Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu, aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Müşavirədə çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov qeyd edib ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar üzrə tədbirlər davam etdirilir. Hazırda, qarşıda duran əsas vəzifələrdən biri pambıqçılığın sürətli inkişafı ilə bağlıdır. Nazir bildirib ki, pambığın tədarükü növbəti aydan – sentyabrdan başlayacaq. Həm texnika, həm də gübrə ilə tam təminat üçün işlər həyata keçiriləcək.

Artıq bir neçə gündən sonra pambıq yığımına start veriləcək. Həqiqətən, bu istiqamətdə həm nazirlik, həm də yerli icra strukturları tərəfindən bütün lazımi işlər görülür. Təsadüfi deyil ki, bugünlərdə Beyləqan rayonunda "Pambıq yığımına hazırlıq və qarşıda duran vəzifələr" mövzusunda respublika müşavirəsi keçirilib.

Kənd Təsərrüfatı Nazirliyindən redaksiyamıza məlumat veriblər ki, Beyləqandakı Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Kənd Təsərrüfatı Nazirliyi Aparatının nümayəndələri, "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbər heyəti, rayon icra hakimiyyəti strukturunun məsul şəxsləri, nazirliyin tabeli qurumlarının, pambıq əkini aparılmış 20 rayonun Dövlət Aqrar İnkişaf Mərkəzlərinin rəhbərləri, pambıqçılıqla məşğul olan 60-a yaxın fermer, eləcə də pambıq emalı müəssisələrinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, ölkəmizdə pambıqçılığın inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. RİH başçısı Beyləqanın kənd təsərrüfatı məhsullarının istehsalı, o cümlədən pambıqçılıq sahəsində böyük potensiala və ənənəyə malik olduğunu vurğulayıb, aqrar sahədə mövcud vəziyyət, əldə edilmiş nailiyyətlər barədə məlumat verib.

Kənd təsərrüfatı naziri İnam Kərimov müşavirədə geniş məruzə ilə çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aqrar sahənin inkişafı prioritet istiqamət kimi elan edilib. Nazir fəxrlə qeyd edib ki, həyata keçirilən tədbirlər nəticəsində aqrar sahənin inkişaf tempi sürətlənir.

Aqrar sahənin, o cümlədən pambıqçılığın inkişafı üçün dövlətimiz tərəfindən böyük dəstək tədbirləri həyata keçirilir. Bu sahənin inkişafı üçün subsidiyalar verilir, texnika və suvarma suyu ilə təminatı sahəsində əlverişli şərait yaradılır.



Nazir çıxışında pambıqçılığın inkişafı istiqamətində görülən kompleks tədbirlərə toxunub, pambıqçılıq sahəsində istehsal olunmuş məhsula görə subsidiya siyasətinin tətbiqindən danışıb, dövlətin dəstəyi ilə fermerlərin gübrə, maşın və texnika ilə təminatı sahəsində irimiqyaslı tədbirlər görüldüyünü qeyd edib.

İ.Kərimov builki pambıq yığımı prosesinə hazırlıq və qarşıda duran vəzifələr, pambıqçılığın inkişafı, hədəflər və perspektivlər, eləcə də kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər, qarşıda duran vəzifələr barədə fermerləri məlumatlandırıb.

Yeri gəlmişkən, müşavirədə Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri Rafail Quliyev "Pambıq yığımına hazırlığın təşkili", "Aqrolizinq" ASC-nin sədri Elmin Rəhmanov "Pambıqçılıqda texniki təminatın təşkili", Meliorasiya və Su Təsərrüfatı ASC sədrinin müavini Zakir Quliyev "Pambıq əkinlərində suvarmanın mövcud vəziyyəti", "MKT İK" MMC-nin direktoru Rövşən Həsənov, "Azərpambıq ASK" MMC-nin direktoru Bəhruz Camalov, "P-Agro" MMC-nin direktoru Azər Əlizadə və "Az-Agro" MMC-nin direktoru Vahid Hüseynov "Pambıqçılğın inkişafı ilə bağlı görülmüş işlər, yığıma hazırlıq" mövzularında məruzə ilə çıxış ediblər.

Məlumat üçün bildirək ki, fermerlərlə aktiv dialoq formatında keçirilən müşavirə üç saata yaxın davam edib. Müşavirə iştirakçıları "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin icrası barədə fikirlərini bölüşüblər.



Müşavirə iştirakçıları əmin olduqlarını bildiriblər ki, bu il ölkənin 20 rayonunda pambıq plantasiyalarında minbir zəhmət hesabına yetişdirilən bol pambıq məhsulunu tez və itkisiz toplamaq mümkün olacaq. Bunun üçün kifayət qədər işçi qüvvəsi və texnika vardır.

Xatırlaraq ki, Azərbaycanın müstəqillik dövründə ən çox pambıq istehsalı 2018-ci ildə qeydə alınıb. Ötən il ölkə üzrə sahələrdən 230,4 min ton xam pambıq yığılıb. Bu, 2015-ci ilin göstəricisindən 6,5 dəfə çoxdur.

2018-ci ildə Azərbaycanda 132,5 min hektar sahədə pambıq əkilib, 2019-cu ildə pambıq əkini sahələrinin həcmi məhsuldarlığı az olan torpaqların əkin dövriyyəsindən çıxarılması hesabına 100,1 min hektaradək azaldılıb. Bu addım pambıqçılıqda orta məhsuldarlığı artırmağa, pambıq əkini dövriyyəsindən çıxarılmış torpaqları daha səmərəli istifadə etməyə imkan verəcək. Pambıq sahələri azalsa da, ölkə pambıqçıları hər hektarın məhsuldarlığını yüksəltmək hesabına ötənilki səviyyədə, hətta ondan da çox məhsul toplamağı planlaşdırıblar.

Bir məqamı xüsusi vurğulamaq lazımdır. Pambıqçılıq kənd təsərrüfatının yüksək əməktutumluluğu ilə seçilən sahələrindən biridir. Ötən illə müqayisədə 2019-cu ildə 20 rayon üzrə pambıq əkən fermerlərin sayı 2373 nəfər artaraq, 18000 nəfərə çatıb. Pambıqçılıq sənayenin inkişafına təkan verməklə əməktutumluluğunu daha da genişləndirmiş olur.



Azərbaycanda 23 pambıq zavodu, 7 iplik istehsalı fabriki, 3 pambıq yağı istehsalı müəssisəsi fəaliyyət göstərir. Fermerləri, pambıq sahələrində çalışan mütəxəssisləri (aqronom, mexanizator, sürücü və s.), mövsümi işçiləri, pambıq zavodu, iplik fabriki, yağ zavodlarında çalışan insanları ümumiləşdirsək, pambıqçılığın inkişafı təxminən 200 mindən artıq insanın əsas gəlir mənbəyini təmin edir. Bu baxımdan pambıqçılıq aqrar məşğulluğun artırılmasında mühüm rol oynayır.

Pambıqçıların kənd təsərrüfatı texnikası ilə təminatı ən yüksək səviyyədədir. Təkcə ötən il "Aqrolizinq" ASC tərəfindən, ümumilikdə, 3480 ədəd müxtəlif kənd təsərrüfatı texnikasının alınması barədə müqavilələr bağlanıb, 2018-ci ildə bu texnikaların 84 faizi (2939 ədəd) Azərbaycana gətirilib. Hazırda pambıqçılığı dəstəkləyən texnika parkında 50 ədəd pambıqyığan kombayn var. Mövcud texnika sayı pambıq sahələrində becərmə, aqrotexniki qulluq və məhsul yığımını 100 faiz həyata keçirməyə imkan verir.

Son illər pambıqçılıq sahəsində nəzərəçarpan uğurların əldə edildiyi rayonlardan biri Salyandır. Bu il Salyanda 7 min 555 hektar sahədə pambıq əkilib. Ötən il 10 min ton pambıq istehsal edən salyanlı fermerlər cari ildə 10 min 400 ton məhsul istehsal etmək əzmi ilə çalışırlar.

**Rayonun Parçaxalaç kənd sakini Miraslan Mirişov** 30 ildən çoxdur ki, təsərrüfatla məşğul olur. Son illər dövlət tərəfindən pambıqçılığın inkişafına göstərilən diqqət və qayğı onun da bu sahəyə marağını artırıb. Bu il fermer əkin sahəsini genişləndirərək 80 hektara çatdırıb.

***Təcrübəli fermer fəxrlə dedi:***

**– Möhtərəm Prezidentimiz İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə pambıqçılığın əvvəlki şöhrətini qaytarmaq istiqamətində görülən işləri ürəkdən alqışlayıram. Bu, o deməkdir ki, sözügedən sahədə çalışan fermerlərin rifahı daha da yaxşılaşacaq. Çünki pambıqçılıq gəlirli sahədir.**

**M.Mirişov sonra bildirdi ki, o, son illər həvəslə pambıq əkib-becərir və hər il becərdiyi sahənin hər hektarından 20-25 sentner məhsul toplayır. Bu il əkin sahəsini 80 hektara çatdırıb. Ümid edir ki, bu il ötənildəkindən daha çox məhsul toplaya biləcək.**

Başqa bir fermer haqqında da söz açmaq yerinə düşərdi. Belə ki, **Kürdəmir rayonunun Mehdili kənd sakini Rəvan Nəsirova məxsus ailə fermer təsərrüfatı pambıqçılıqla məşğul olur**. Ötən mövsümdə 5 hektar sahədə pambıq yetişdirən ailə 13,5 ton məhsul istehsal edib. Ailə cari mövsümdə də 5 hektarda çiyid səpini aparıb və hazırda sahələrdən kompleks becərmə tədbirləri həyata keçirilir.

**Təsərrüfatın başçısı Rəvan Nəsirov dedi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sektorda aparılan islahatlar, fermerlərə göstərilən dəstək bizim üçün ənənəvi sahə olan pambıqçılığın inkişafına gözəl şərait yaradıb. Fermer cari ildə hər hektardan azı 35 sentner məhsul götürmək əzmində olduğunu söylədi.**

Bəli, bu il əksər fermer və mütəxəssislərin qeyd etdiyi kimi, ölkəmizin pambıq tarlalarında məhsul boldur. Ümid edirik ki, bu sahədə bütün qüvvələri səfərbər edərək, yığım kampaniyasını mütəşəkkil və uğurla keçirmək mümkün olacaq.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***